

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 33 (21.443)

19 fevral 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.

Fevralın 17-də Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı Mövlud Çavuşoğluna və türk xalqına başsağlığı verən dövlətimizin başçısı bu terrorun Azərbaycanı da sarsıtdığını vurğulayaraq hadisənin ölkəmizdə qətiyyətlə pislənildiyini və qınanıldığını deyib. Prezident İlham Əliyev həmişə olduğu kimi, bu ağır günlərdə də Azərbaycan xalqının türk xalqının yanında olduğunu qeyd edib.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsində Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının əhəmiyyətindən danışan dövlətimizin başçısı bunu birliyimizin ifadəsi kimi dəyərləndirib.

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu fevralın 17-də Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı verdiyi başsağlığına, qardaş Azərbaycan xalqının və şəxsən Prezident İlham Əliyevin hər zaman olduğu kimi, bu ağır günlərdə də Türkiyənin və türk xalqının yanında olmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Mövlud Çavuşoğlu son zamanlar Azərbaycanda iqtisadi, o cümlədən ölkə həyatının bütün sahələrinin inkişafı ilə bağlı qəbul olunan qərarların ölkəsində rəğbətlə qarşılandığını deyib və qardaş Azərbaycanın gələcəyi ilə bağlı Prezident İlham Əliyevin liderliyi ilə görülən bütün işlərdə uğurlar arzulayıb.

## Naxçıvan Muxtar Respublikasında Apellyasiya şuralarının yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılmasının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurası yaradılsın.

2. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurası haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının tərkibi” təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyində Apellyasiya Şurası yaradılsın.

5. “Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurası haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 fevral 2016-cı il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurası haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurası (bundan sonra – Şura) sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı müraciətlərinə baxılmasının təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının bununla bağlı qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) yuxarı orqana şikayətlərin (bundan sonra – şikayət) verilməsi mexanizminin tənzimlənməsi məqsədi ilə yaradılmış və ictimai əsaslarla (ödənişsiz əsaslarla) fəaliyyət göstərən kollegial orqandır.

1.2. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Bu Əsasnamənin məqsədləri üçün “şikayət” dedikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özünün sahibkarlıq fəaliyyəti ilə bağlı verilmiş şikayət üzrə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qəbul etdiyi qərarlardan, qərarların qəbul edilməsindən imtinadan, habelə hərəkət və ya hərəkətsizliyindən həmin şəxslərin Şuraya verdiyi yazılı müraciəti başa düşülür.

1.4. Şura öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq, qərəzsizlik prinsipləri əsasında, mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslərlə əlaqəli şəkildə həyata keçirir.

1.5. Şura Dövlət gerbi əks olunmuş xidməti blanka və möhürə malikdir.

### 2. Şuranın vəzifələri

2.0. Şuranın vəzifələri aşağıdakılardan ibarətdir:

2.0.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən verilmiş şikayətlərə baxılmasını təmin etmək;

2.0.2. Şuraya daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq və işin nəticəsi üzrə yazılı qərar qəbul etmək;

2.0.3. Şurada baxılan müraciətlərin uçotunu aparmaq, onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə yarımillik və illik arayışlar (hesabatlar) təqdim etmək;

2.0.4. Şuranın qəbul etdiyi qərarların icrasına nəzarət etmək;

2.0.5. qanunvericiliyə uyğun olaraq dövlət və kommersiya sirrinin və qanunla açıqlanması və yayılması qadağan edilən digər məlumatların qorunması üçün zəruri tədbirlər görmək;

2.0.6. qanunla və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 3. Şuranın hüquqları

3.0. Şura öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.0.1. daxil olmuş şikayətlərlə bağlı zəruri məlumatları və sənədləri əldə etmək üçün sorğular vermək və belə məlumatları və sənədləri almaq;

3.0.2. şikayət vermiş şəxsləri (onların səlahiyyətli nümayəndələrini), aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərini, habelə digər əlaqəli şəxsləri Şuranın iclaslarına dəvət etmək, onların iştirakı ilə araşdırma aparmaq, onlardan izahatlar almaq;

3.0.3. Şuraya daxil olan şikayətlərin araşdırılması zamanı aşkar olunmuş nöqsanların və pozuntuların aradan qaldırılması ilə bağlı aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq göstərişlər verilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə müraciət etmək;

3.0.4. Şuraya daxil olan şikayətlərin araşdırılması zamanı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən xidməti fəaliyyətlərinin icrası ilə bağlı kobud nöqsanlara yol verilməsi, habelə hüquqi aktların tələblərinin pozulması halları aşkar edildikdə, həmin şəxslərin məsuliyyətə cəlb olunması məqsədilə aidiyyəti üzrə məsələ qaldırmaq və nəticəsi üzrə arayış almaq;

3.0.5. Şuranın fəaliyyətinə ekspert, mütəxəssis və məsləhətçilər cəlb etmək;

3.0.6. şikayətlərin araşdırılması zamanı aşkar edilmiş ziddiyyətlərin aradan qaldırılması ilə bağlı təkliflər vermək, Şuranın qərarlarının yerinə yetirilməsinin monitorinqini aparmaq və nöqsanların aradan qaldırılması üzrə tədbirlər görmək;

3.0.7. qanunla və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Şuranın fəaliyyətinin təşkili

4.1. Şuranın tərkibi (sədri, sədrin müavini və digər iyirmi beş üzvü) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət olmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müəyyən edilir.

4.2. Şuranın sədri aşağıdakı vəzifələri yerinə yetirir:

4.2.1. Şuranın işini təşkil edir, qərarları və digər sənədləri imzalayır;

4.2.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir və keçirilən iclaslarda sədrlik edir;

4.2.3. Şuranı təmsil edir;

4.2.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər işləri həyata keçirir.

4.3. Şuranın üzvlərinin hüquq və vəzifələri aşağıdakılardır:

4.3.1. Şuranın iclaslarında və fəaliyyətində, qərarların qəbul edilməsi ilə bağlı səsvermədə iştirak etmək;

4.3.2. Şuranın iclasına təqdim edilmiş bütün materiallarla əvvəlcədən tanış olmaq;

4.3.3. Şuraya daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq, rəy və təkliflər vermək;

4.3.4. Şuranın iclas protokollarını imzalamaq;

4.3.5. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclasında baxılması üçün təkliflər vermək;

4.3.6. bu Əsasnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək və hüquqları həyata keçirmək.

4.4. Şuranın hər bir üzvü Şuranın iclasında baxılan məsələlər üzrə şəxsi maraqlarına toxunan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda Şuranı məlumatlandırmalı və qərarların qəbul edilməsində iştirak etməməlidir.

4.5. Şuranın cari fəaliyyəti Şura sədrinin müavini tərəfindən təşkil edilir.

4.6. Şura sədrinin müavini:

4.6.1. Şuraya daxil olan şikayətlərlə əlaqədar təşkilati tədbirləri həyata keçirir;

4.6.2. Şuraya daxil olan şikayətləri qanunvericiliyin və bu Əsasnamənin tələblərinə uyğunluğu baxımından yoxlayır, onlar müvafiq tələblərə uyğun olduğu halda iş üzrə bütün zəruri sənədlərin (materialların) 4 iş günündən gec olmayaraq Şuraya təqdim edilməsi üçün aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müraciət edir;

4.6.3. toplanmış sənədləri (materialları) rəsmi şəkildə rəy verilməsi üçün Şuranın üzvlərinə göndərir, təqdim edilmiş rəyləri ümumiləşdirir və Şuranın sədri ilə razılaşdırmaqla Şuranın iclaslarını təşkil edir;

4.6.4. Şuranın iclaslarının vaxtı barədə Şuranın üzvlərinə, habelə bu Əsasnamənin 3.0.2-ci yarımbəndində göstərilən şəxslərə iclasa ən azı 3 iş günü qalmış yazılı məlumat verilməsini təmin edir;

4.6.5. Şuranın iclaslarının protokolunu tərtib edir, qərarların layihələrini hazırlayır və qəbul edilən qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir;

4.6.6. Şurada baxılan müraciətlərin uçotunu aparır, onları təhlil edir, icmallaşdırır və nəticəsi barədə Şuranın sədrinə rüblük, yarımillik və illik arayışlar (hesabatlar) təqdim edir;

4.6.7. Şuranın fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin edir;

4.6.8. öz səlahiyyətləri daxilində Şuranın qəbul etdiyi qərarların icrası ilə əlaqədar müvafiq tədbirlər görür;

4.6.9. bu Əsasnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir və hüquqları həyata keçirir.

Ardı 2-ci səhifədə

**5. Şikayətlərə dair tələblər**

5.1. Şikayət yazılı formada tərtib edilir. Şikayətdə qanunla nəzərdə tutulan məlumatlarla yanaşı, aşağıdakı məlumatlar da göstərilir:

5.1.1. şikayət edən şəxsin VÖEN-i;

5.1.2. şikayətin predmeti üzrə bundan əvvəl aidiyyəti mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarına edilmiş müraciət (müraciətlər), müraciətin (müraciətlərin) edilməsinə səbəb olan hal barədə məlumatlar və alınmış cavab (cavablar) barədə məlumatlar;

5.1.3. şikayətə əlavə edilmiş sənədlərin siyahısı.

5.2. Şikayətlər müraciət edən fiziki şəxsin özü və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndələri tərəfindən (səlahiyyəti təsdiq edən sənədin surəti şikayətə əlavə edilməklə) imzalanır.

5.3. Hüquqi şəxs (o cümlədən onun nümayəndəlik, filial və idarəsi) tərəfindən təqdim olunan şikayətlərə həmin hüquqi şəxsin möhürü vurulmalıdır.

5.4. Şikayətlərin əsaslı olmasını təsdiq edən sənədlərin (dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarından alınmış qərar, akt, rəy, məktub, arayış, qəbz və digər sənədlərin) müvafiq qaydada təsdiq olunmuş surətləri şikayətlərə əlavə edilir.

**6. Şuranın iclaslarının keçirilməsi qaydası**

6.1. Şuranın iclasları onun üzvlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın iclasları Şura sədrinin və ya üzvlərinin müraciətinə əsasən keçirilir.

6.2. Şuranın gündəliyinə daxil edilmiş şikayətlərlə bağlı bütün dəlillər Şuranın üzvləri tərəfindən müzakirə edilir və hər bir məsələyə ayrıca münasibət bildirilir.

6.3. Şuranın iclaslarında qərarlar açıq səsvermə yolu ilə iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Şuranın sədrinin səsi həlledicidir.

6.4. Şuranın gündəliyinə daxil edilmiş şikayətlərlə bağlı Şuranın sədri, onun müavini və ya üzvlərindən biri məruzə edir.

6.5. Şuranın iclaslarına dəvət olunan şəxslər təkliflər vermək və müvafiq məsələlərə münasibət bildirmək hüququna malikdirlər.

6.6. Şuranın iclaslarında bu Əsasnaməyə uyğun olaraq qəbul edilmiş və Şuranın sədri tərəfindən imzalanmış qərarların icrası bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları, həmçinin fiziki və hüquqi şəxslər üçün məcburidir.

6.7. Şuranın sədri üzrlü səbəblərlə əlaqədar (məzuniyyət, ezamiyyət, xəstəlik və s.) Şuranın iclasında iştirak edə bilmədikdə, onun səlahiyyətləri Şura sədrinin müavini tərəfindən həyata keçirilir.

**7. Şuranın iclas protokollarına və qəbul etdiyi qərarlara dair tələblər**

7.1. Şuranın iclaslarının nəticəsi Şuranın üzvləri tərəfindən imzalanmış iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.

7.2. Şuranın iclas protokolunda aşağıdakılar göstərilməlidir:

7.2.1. iclasın keçirildiyi tarix və yer;

7.2.2. iclasda iştirak edən Şuranın üzvlərinin, dəvət edilmiş digər şəxslərin və (və ya) onların səlahiyyətli nümayəndələrinin adları, soyadları və atalarının adları;

7.2.3. müzakirə edilməsi üçün gündəliyə daxil edilmiş şikayətin predmeti, qısa məzmunu və əsasları, bununla bağlı daha əvvəl qəbul edilmiş qərarlar və həmin qərarların əsasları;

7.2.4. Şuranın iclasında iştirak edən şəxslərin çıxışları;

7.2.5. Şuranın daxil olmuş müraciətlərlə bağlı topladığı sübutlar, gəldiyi nəticələr, aidiyyəti hüquqi aktlara istinad və Şura tərəfindən qəbul edilmiş qərar.

7.3. Şura icraatına daxil olan şikayətlər üzrə apardığı araşdırmanın nəticəsi olaraq aşağıdakı qərarlardan birini qəbul edir:

7.3.1. şikayət təmin edilir;

7.3.2. şikayət qismən təmin edilir;

7.3.3. şikayət təmin edilmir;

7.3.4. şikayətin mahiyyəti üzrə yeni qərar qəbul edilir.

7.4. Şuranın bu Əsasnamənin 7.3-cü bəndinə uyğun olaraq qəbul etdiyi qərarı əsaslandırılmış şəkildə tərtib olunmalı və işin bütün hallarını özündə əks etdirməlidir. Şuranın sədri tərəfindən imzalanmış qərar giriş, təsviri, əsaslandırıcı və nəticə hissəsindən ibarət olur və həmin hissələrdə aşağıdakı məlumatlar qeyd edilir:

7.4.1. giriş hissəsində Şuranın qərarının qəbul edildiyi tarix və yer, qərarı imzalayan Şuranın sədrinin soyadı, adı, atasının adı, vəzifəsi, rütbəsi, şikayətin predmeti və irəli sürülən tələblər;

7.4.2. təsviri hissəsində daxil olmuş şikayət edən şəxsin gətirdiyi əsas, şikayətin predmeti üzrə daha əvvəl qəbul edilmiş qərarlar və həmin qərarların qısa məzmunu, əsasları, habelə işdə iştirak edən şəxslərin izahatları;

7.4.3. əsaslandırıcı hissəsində Şuranın əldə etdiyi sübutlar və topladığı sənədlər barədə məlumatlar, aidiyyəti hüquqi aktlara istinadlar;

7.4.4. nəticə hissəsində Şuranın qəbul etdiyi qərar, qərarın icrasına dair göstəriş və qərardan şikayətin verilməsi qaydası.

---

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Apellyasiya Şurasının

## T Ə R K İ B İ

**Şuranın sədri**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini

**Şuranın üzvləri:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri – müavin

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı şöbəsinin rəisi – üzv

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat şöbəsinin rəisi – üzv

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi – üzv

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Əczaçılıq və dərman vasitələrinin reyestri sektorunun müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçilik məhsullarının istehsalı, toxumçuluq və aqrokimyəvi xidmət şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Gəlirlərin proqnozu şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə və lisenziyalaşdırma şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq və miqrasiya şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Maliyyə-tarif şöbəsinin rəisi – üzv

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Qiymət statistikası şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Torpaq məsələləri şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsinin müdiri – üzv

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və miqrasiya nəzarəti şöbəsinin rəisi – üzv

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin Epizootiya əleyhinə tədbirlər və müalicə-profilaktika sektorunun müdiri – üzv

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin Kredit təşkilatlarına nəzarət şöbəsinin rəisi – üzv

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – üzv

---

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurası haqqında

## ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Apellyasiya Şurası (bundan sonra – Apellyasiya Şurası) sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin aparatının və onun struktur qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə (bundan sonra – şikayət) baxan və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

1.2. Apellyasiya Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Apellyasiya Şurası öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və Naxçıvan Muxtar Respublikasında qeydiyyatdan keçmiş qeyri-hökumət təşkilatları, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı surətdə fəaliyyət göstərir.

1.4. Bu Əsasnamənin məqsədləri üçün "şikayət" dedikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı verilmiş şikayətlər üzrə Nazirliyin və onun struktur qurumlarının qəbul etdiyi qərarlardan, qərarların qəbul edilməsindən imtinadan, habelə hərəkət və ya hərəkətsizliyindən həmin şəxslərin Apellyasiya Şurasına verdiyi yazılı müraciəti başa düşülür.

1.5. Apellyasiya Şurası öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq, qərəzsizlik prinsipləri əsasında qurur.

**2. Apellyasiya Şurasının vəzifələri**

2.0. Apellyasiya Şurasının vəzifələri aşağıdakılardır:

2.0.1. Apellyasiya Şurasına daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq və işin nəticəsi üzrə müvafiq olaraq əsaslandırılmış şəkildə qərar qəbul etmək;

2.0.2. Apellyasiya Şurasının qəbul etdiyi qərarların icrasına nəzarət etmək;

2.0.3. Apellyasiya Şurasında baxılan şikayətlərin uçotunu aparmaq, onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə iqtisadiyyat nazirinə yarımillik və illik arayışlar (hesabatlar) təqdim etmək;

2.0.4. qanunvericiliyə uyğun olaraq dövlət və kommersiya sirrinin və qanunla açıqlanması və yayılması qadağan edilən digər məlumatların qorunması üçün zəruri tədbirlər görmək;

2.0.5. qanunla və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**3. Apellyasiya Şurasının hüquqları**

3.0. Apellyasiya Şurası öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.0.1. Apellyasiya Şurasına daxil olan şikayətlərlə əlaqədar sorğular göndərmək (müraciətlər etmək), zəruri sənədləri və məlumatları almaq;

3.0.2. şikayətlə müraciət etmiş şəxsləri (onların səlahiyyətli nümayəndələrini), Nazirliyin və onun struktur qurumlarının vəzifəli şəxslərini, habelə digər əlaqəli şəxsləri Apellyasiya Şurasının iclaslarına dəvət etmək, onların iştirakı ilə araşdırma aparmaq, onlardan izahat almaq;

3.0.3. Apellyasiya Şurasına daxil olan şikayətlərin araşdırılması zamanı aşkar olunmuş nöqsanların və pozuntuların aradan qaldırılması ilə bağlı Nazirliyin aparatının və ya strukturuna daxil olan və ya tabeliyində olan digər qurumlarının vəzifəli şəxslərinə yazılı göstərişlər vermək;

3.0.4. Apellyasiya Şurasına daxil olan şikayətlərin araşdırılması zamanı Nazirliyin aparatının və ya strukturuna daxil olan və ya tabeliyində olan digər qurumlarının vəzifəli şəxsləri tərəfindən xidməti fəaliyyətlərinin icrası ilə bağlı kobud nöqsanlara yol verilməsi, habelə hüquqi aktların pozulması halları aşkar edildikdə, həmin şəxslərin məsuliyyətə cəlb olunması məqsədilə məsələ qaldırmaq və nəticəsi barədə məlumat almaq;

3.0.5. şikayətlərin araşdırılması zamanı aşkar edilmiş ziddiyyətlərin aradan qaldırılması ilə bağlı təkliflər vermək, Apellyasiya Şurasının qərarlarının yerinə yetirilməsinin monitorinqini aparmaq və nöqsanların aradan qaldırılması üzrə tədbirlər görmək;

3.0.6. Apellyasiya Şurasının fəaliyyətinə ekspert, mütəxəssis və məsləhətçilər cəlb etmək;

3.0.7. qanunla və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Apellyasiya Şurasının fəaliyyətinin təşkili**

4.1. Şuranın tərkibi (sədri, sədrin müavini və digər üç üzvü) Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri tərəfindən müəyyən edilir. Apellyasiya Şurasının sədri Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini olmalıdır.

4.2. Apellyasiya Şurasının sədri:

4.2.1. Apellyasiya Şurasının işini təşkil edir, qərarları və digər sənədləri imzalayır;

4.2.2. Apellyasiya Şurasının digər üzvlərinin təsdiq edilməsi ilə bağlı iqtisadiyyat

*Ardı 3-cü səhifədə*

nazirinə təqdimatlar (təkliflər) verir;

4.2.3. Apellyasiya Şurasının iclaslarının gündəliyini müəyyənləşdirir və keçirilən iclaslarda sədrlik edir;

4.2.4. Apellyasiya Şurasını təmsil edir.

4.3. Apellyasiya Şurasının üzvlərinin hüquq və vəzifələri aşağıdakılardır:

4.3.1. Apellyasiya Şurasının iclaslarında və fəaliyyətində, qərarların qəbul edilməsi ilə bağlı səsvermədə iştirak etmək;

4.3.2. Apellyasiya Şurasına daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq, rəy və təkliflər vermək;

4.3.3. Apellyasiya Şurasının iclaslarının protokollarını imzalamaq;

4.3.4. Apellyasiya Şurasının iclaslarında qəbul edilmiş qərarlardan razı olmadıqda, həmin məsələlərin Nazirliyin kollegiya iclasında müzakirə edilməsi üçün yazılı şəkildə əsaslandırılmış rəylə iqtisadiyyat nazirinə müraciət etmək;

4.3.5. bu Əsasnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək və hüquqları həyata keçirmək.

4.4. Apellyasiya Şurasının cari fəaliyyəti Apellyasiya Şurası sədrinin müavini tərəfindən təşkil edilir.

4.5. Apellyasiya Şurasının hər bir üzvü Şuranın iclasında baxılan məsələlər üzrə şəxsi maraqlarına toxunan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda, Şuranı məlumatlandırmalı və qərarların qəbul edilməsində iştirak etməməlidir.

4.6. Apellyasiya Şurası sədrinin müavini:

4.6.1. Apellyasiya Şurasına daxil olan şikayətlərlə əlaqədar təşkilati tədbirləri həyata keçirir;

4.6.2. Apellyasiya Şurasına daxil olan şikayətləri qanunvericiliyin və bu Əsasnamənin tələblərinə uyğunluğu baxımından yoxlayır, onlar müvafiq tələblərə uyğun olduğu halda iş üzrə bütün zəruri sənədlərin (materialların) 2 iş günündən gec olmayaraq Apellyasiya Şurasına təqdim edilməsi üçün Nazirliyin aparatının aidiyyəti struktur bölməsinə və ya strukturuna daxil olan və ya tabeliyində olan digər qurumlarına müraciət edir;

4.6.3. toplanmış sənədləri (materialları) rəsmi şəkildə rəy verilməsi üçün Apellyasiya Şurasının üzvlərinə göndərir, təqdim edilmiş rəyləri ümumiləşdirir və Apellyasiya Şurasının sədri ilə razılaşdırmaqla Apellyasiya Şurasının iclaslarını təşkil edir;

4.6.4. Apellyasiya Şurasının iclaslarının vaxtı barədə Apellyasiya Şurasının üzvlərinə, habelə bu Əsasnamənin 3.0.2-ci yarımbəndində göstərilən şəxslərə iclasa ən azı 3 iş günü qalmış yazılı məlumat verir;

4.6.5. Apellyasiya Şurasının iclaslarının protokolunu tərtib edir, qərarların layihəsini hazırlayır, qəbul edilən qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir;

4.6.6. Apellyasiya Şurasında baxılan şikayətlərin uçotunu aparır, onları təhlil edir, icmallaşdırır və nəticəsi barədə Apellyasiya Şurasının sədrinə rüblük, yarımillik və illik arayışlar (hesabatlar) təqdim edir;

4.6.7. Apellyasiya Şurasının fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan informasiyanın Nazirliyin rəsmi internet saytında yerləşdirilməsini və informasiyanın daim yenilənməsini təmin edir;

4.6.8. bu Əsasnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir və hüquqları həyata keçirir.

**5. Şikayətlərə dair tələblər**

5.1. Şikayət yazılı formada tərtib edilir. Şikayətdə qanunla nəzərdə tutulan məlumatlarla yanaşı, aşağıdakı məlumatlar da göstərilir:

5.1.1. şikayət edən şəxsin VÖEN-i;

5.1.2. şikayətin predmeti üzrə bundan əvvəl Nazirliyə edilmiş müraciət (müraciətlər), müraciətin (müraciətlərin) edilməsinə səbəb olan hal barədə məlumatlar və alınmış cavab (cavablar) barədə məlumatlar;

5.1.3. şikayətə əlavə edilmiş sənədlərin siyahısı.

5.2. Şikayətlər müraciət edən fiziki şəxsin özü və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndələri tərəfindən (səlahiyyəti təsdiq edən sənədin surəti şikayətə əlavə edilməklə) imzalanır.

5.3. Hüquqi şəxs (o cümlədən onun nümayəndəlik, filial və idarəsi) tərəfindən təqdim olunan şikayətlərə həmin hüquqi şəxsin möhürü vurulmalıdır.

5.4. Şikayətlərin əsaslı olmasını təsdiq edən sənədlərin (dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarından alınmış qərar, akt, rəy, məktub, arayış, qəbz və digər sənədlərin) müvafiq qaydada təsdiq olunmuş surətləri şikayətlərə əlavə edilir.

**6. Apellyasiya Şurasının iclaslarının keçirilməsi qaydası**

6.1. Apellyasiya Şurasının iclasları onun üzvlərinin azı üçdə ikisi iştirak etdikdə baş tutmuş sayılır. Apellyasiya Şurasının iclasları zərurət yarandığı hallarda Apellyasiya Şurasının sədrinin razılığı ilə və ya iqtisadiyyat nazirinin göstərişi ilə istənilən vaxt keçirilir.

6.2. Apellyasiya Şurasının gündəliyinə daxil edilmiş şikayətlərlə bağlı bütün dəlillər Apellyasiya Şurasının üzvləri tərəfindən müzakirə edilir və hər bir məsələyə ayrıca münasibət bildirilir.

6.3. Apellyasiya Şurasının iclaslarında qərarlar açıq səsvermə yolu ilə iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Apellyasiya Şurasının sədri həlledici səsə malikdir.

6.4. Apellyasiya Şurasının gündəliyinə daxil edilmiş şikayətlərlə bağlı Apellyasiya Şurasının sədri, onun müavini və ya üzvlərindən biri məruzə edir.

6.5. Apellyasiya Şurasının iclaslarına dəvət olunan şəxslər təkliflər vermək və müvafiq məsələlərə münasibət bildirmək hüququna malikdirlər.

6.6. Apellyasiya Şurasının sədri üzrlü səbəblərlə əlaqədar (məzuniyyət, ezamiyyət, xəstəlik və s.) Apellyasiya Şurasının iclaslarında iştirak edə bilmədikdə, onun səlahiyyətləri iqtisadiyyat naziri tərəfindən Apellyasiya Şurası sədrinin müavininə həvalə edilir.

**7. Apellyasiya Şurasının iclas protokollarına və qəbul etdiyi qərarlarına dair tələblər**

7.1. Apellyasiya Şurasının iclaslarının nəticəsi Apellyasiya Şurasının üzvləri tərəfindən imzalanmış iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.

7.2. Apellyasiya Şurasının iclas protokolunda aşağıdakılar göstərilməlidir:

7.2.1. iclasın keçirildiyi tarix və yer;

7.2.2. iclasda iştirak edən Apellyasiya Şurasının üzvlərinin, dəvət edilmiş digər şəxslərin və (və ya) onların səlahiyyətli nümayəndələrinin adları, soyadları və atalarının adları;

7.2.3. müzakirə edilməsi üçün gündəliyə daxil edilmiş şikayətin predmeti, qısa məzmunu və əsasları, bununla bağlı predmeti üzrə daha əvvəl qəbul edilmiş qərarlar və həmin qərarların əsasları;

7.2.4. Apellyasiya Şurasının iclasında iştirak edən şəxslərin çıxışları;

7.2.5. Apellyasiya Şurasının daxil olmuş şikayətlə bağlı topladığı sübutlar, gəldiyi nəticələr, aidiyyəti hüquqi aktlara istinad, Apellyasiya Şurası tərəfindən qəbul edilmiş qərar.

7.3. Apellyasiya Şurası icraatına daxil olan şikayətlər üzrə aparılan araşdırmanın nəticəsi olaraq aşağıdakı qərarlardan birini qəbul edir:

7.3.1. şikayət təmin edilir;

7.3.2. şikayət qismən təmin edilir;

7.3.3. şikayət təmin edilmir;

7.3.4. şikayətin mahiyyəti üzrə yeni qərar qəbul edilir.

7.4. Apellyasiya Şurasının qərarı əsaslandırılmış şəkildə tərtib olunmalı və işin bütün hallarını özündə əks etdirməlidir. Apellyasiya Şurasının sədri tərəfindən imzalanmış qərar giriş, təsviri, əsaslandırıcı və nəticə hissəsindən ibarət olur və həmin hissələrdə aşağıdakı məlumatlar qeyd edilir:

7.4.1. giriş hissəsində Apellyasiya Şurasının qərarının qəbul edildiyi tarix və yer, qərarı imzalayan Apellyasiya Şurası sədrinin soyadı, adı, atasının adı, vəzifəsi, şikayətin predmeti və irəli sürülən tələblər;

7.4.2. təsviri hissəsində daxil olmuş şikayətlə müraciət etmiş şəxsin gətirdiyi əsas, şikayətin predmeti üzrə daha əvvəl qəbul edilmiş qərarlar və həmin qərarların qısa məzmunu, əsasları, habelə işdə iştirak edən şəxslərin izahatları;

7.4.3. əsaslandırıcı hissəsində Apellyasiya Şurasının əldə etdiyi sübutlar və topladığı sənədlər barədə məlumatlar, aidiyyəti hüquqi aktlara istinadlar;

7.4.4. nəticə hissəsində Apellyasiya Şurasının qəbul etdiyi qərar, qərarın icrasına dair göstəriş və qərardan şikayətin verilməsi qaydası.

7.5. Apellyasiya Şurasının icraatına daxil olan şikayət digər orqanın səlahiyyətlərinə aid olduğu halda, Apellyasiya Şurası şikayətin daxil olduğu vaxtdan ən geci 3 iş günü müddətində şikayəti və ona əlavə olunmuş sənədləri səlahiyyətli orqana göndərir və bu barədə şikayətçiyə yazılı şəkildə əsaslandırılmış məlumat verir.

*Naxçıvan məhsulları xarici bazarda*

## *“Ləzzət Biskvit və Şokolad Fabriki”* Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsulları İran və Gürcüstan bazarlarında






Muxtar respublikada sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə dövlət maliyyə dəstəyi göstərilir, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri həyata vəsiqə alır. Bu da, təbii ki, özəl sektorun ümumi daxili məhsuldakı payının ilbəil artması ilə müşahidə olunur. Bu artım da, öz növbəsində, daxili bazarın yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin olunmasına rəvac verir. 1995-1996-cı illərdə yalnız 4-5 növ məhsula olan tələbatın az bir hissəsinin yerli istehsal hesabına ödənildiyi muxtar respublikamızda hazırda yeni yaradılmış və ya fəaliyyəti bərpa olunmuş müəssisələrdə 361 növdə məhsul istehsal edilir. İstehsal olunan 107 növdə ərzaq, 236 növdə qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir.

“Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti də özəl bölmənin, sahibkarlıq fəaliyyətinin inkişafına göstərilən dövlət qayğısından bəhrələnmiş, Naxçıvan şəhərində sənaye şəhərciyi üçün ayrılmış ərazidə ayrı-ayrı iş otaqlarından ibarət inzibati bina, istehsal sahəsi, yeməkxana və digər yardımçı binalar tikilib istifadəyə verilmiş, ətrafında abadlıq işləri aparılmışdır. Onu da qeyd edək ki, istehsal sahəsinin yaradılmasına 1 milyon 716 min 960 manat vəsait sərf olunmuşdur ki, bunun da 1 milyon 12 min manatı Sahibkarlığa Kömək Fondundan, 704 min 960 manatı isə daxili imkanlar hesabına ödənilmişdir.

2011-ci ildən vafli istehsalı ilə fəaliyyətə başlayan müəssisədə 2013-cü ildə peçenye istehsalı sahəsi yaradılmışdır. Müəssisədə istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, daxili imkanlar hesabına ödənilir ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir. Sahibkarlıq fəaliyyətinin inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, daxili bazarın keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaratmaqla bərabər, xaricdən idxal edilən, mənşəyi məlum olmayan keyfiyyətsiz məhsulların muxtar respublikamıza idxal olunmasının da qarşısını alır.

Fabrikdə sanitar-gigiyenik və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. Burada fəaliyyət göstərən istehsal sahələrində Türkiyənin “Pek makina”, “Forma makina LTD”, “Ar-Can”, “Alper” və “Makrev” firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Texnoloji proseslərə ciddi əməl olunan müəssisədə fəaliyyət göstərən şəkər döyirmanında şəkər üyüdülüb pudra halına salındıqdan sonra mikser avadanlıqlarda reseptə uyğun olaraq müxtəlif qatqı maddələri ilə qarışdırılaraq hazır kremin saxlanılması üçün nəzərdə tutulan ayrı-ayrı çənlərə yığılır. Vafli və peçenye istehsalı üçün xəmir hazırlanması da avtomatik olaraq yerinə yetirilir və istehsal xəttinə ötürülür. Qəliblərə tökülən xəmir müəyyən temperaturda bişirilir, ayrı-ayrı mərhələlərdə kremlər əlavə olunmaqla tunel soyuducularından keçdikdən sonra müəyyən ölçülərdə kəsilir. Bazar iqtisadiyyatının tələblərinə uyğun yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, məhsulun quruluşunun, dizaynının yüksək səviyyədə olması və ekoloji cəhətdən təmiz şəraitdə qablaşdırılması da diqqət mərkəzində saxlanılır. Gündəlik istehsal gücü 2,4 ton olan müəssisədə vanilli, çiyələkli, bananlı, kakaolu, südlü tərkibdə, “Tıq-tıq xanım”, “Şokolay” adları ilə şokoladlı olmaqla, 25 çeşiddə istehsal olunan vafli, “Naxçıvan”, “Məktəbli”, “Çay vaxtı”, “Möminə xatın” “Yubiley” və sair adlarda olmaqla, 16 çeşiddə istehsal edilən peçenye və biskvit 35 qramdan 5 kiloqramadək nəfis tərtibatla bəzədilmiş taralarda qablaşdırılır. Hazır məhsulun üzərində istehsal tarixi, saxlanma şəraiti və istifadə müddəti göstərilir ki, bu da qida məhsulları istehsalında mühüm amildir. Həmçinin müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlarla təmin olunmuş laboratoriya fəaliyyət göstərir, xammal və hazır məhsulların keyfiyyətinə ciddi nəzarət olunur. Hazır məhsullar Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qeydiyyata alınmış “Nati” əmtəə nişanı ilə müəssisənin balansında olan maşınlarla Naxçıvan şəhərində və ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə paylanılır.

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyət göstərən müəssisə daxili bazarın yüksəkkeyfiyyətli yerli məhsullarla təmin olunması ilə yanaşı, yeni iş yerlərinin açılmasına da səbəb olmuşdur. Müəssisədə hazırda 43 nəfər çalışır ki, onlar da yüksək əməkhaqqı və xüsusi geyim formaları ilə təmin edilmişlər.

Sahibkarlığın, sağlam rəqabətin və əmtəə bazarının inkişafı, yeni iş yerlərinin yaradılması muxtar respublikada qarşıya qoyulan iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Naxçıvan şəhərində biznes forumların, işgüzar görüş və konfransların keçirilməsini, həmçinin yerli məhsulların tanıdılması və satışının təşkilini təmin etmək məqsədilə yaradılmış Biznes Mərkəzin xidmətlərindən səmərəli istifadə edilir. İstehsal edilən yüksəkkeyfiyyətli yerli məhsulların ölkəmizin digər regionlarında satışa çıxarılmasına, xarici ölkələrə ixrac olunmasına da əlverişli şərait yaradılır. Ölkəmizdə və ya xarici ölkələrdə keçirilən biznes forumlarda, sərgilərdə sahibkarların iştirakı təmin olunur, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən sahibkarların təcrübəsindən bəhrələnilir. Təbii ki, bu, bir tərəfdən əlaqələrin daha da genişləndirilməsinə, digər tərəfdən məhsulların Azərbaycanın digər regionlarında və xarici ölkələrdə alıcı tapmasına əlverişli şərait yaradır. Bəli, yaradılan şəraitdən “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti də bəhrələnmişdir. Bir vaxtlar Rusiya və Ukraynadan peçenye və vafli gözləyən Naxçıvan indi “Nati” tanıtım nişanı ilə Naxçıvan məhsullarını nəinki ölkəmizin digər regionlarında satışa çıxarır, həm də İran və Gürcüstana ixrac edir.

**Kərəm HƏSƏNOV**

## Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclasını AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin əməkdaşları onlayn izləyiblər

*Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclası keçirilib. Naxçıvan Dövlət Universitetinin və AMEA Naxçıvan Bölməsinin əməkdaşları internet vasitəsilə hesabat iclasını onlayn izləyiblər.*

Tədbiri AMEA-nın prezidenti, akademik Akif Əlizadə açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib. Akademik Akif Əlizadə çıxışında AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin müəlliflər kollektivinin hazırladığı 3 cildlik “Naxçıvan tarixi” kitabı haqqında danışıb. Akademik bildirib ki, əsər Naxçıvanın qədim tarixini, ayrı-ayrı mərhələlərdəki inkişaf səviyyəsini, bu diyarın ölkəmizə və dünyaya bəxş etdiyi görkəmli siyasi və ədəbi şəxsiyyətləri, onların müstəqillik uğrunda mübarizəsini əks etdirən dəyərli monoqrafik tədqiqatdır. Rəyasət Heyəti kitabın aktuallığını və Azərbaycançılıq ideologiyasının təbliği baxımından əhəmiyyətini nəzərə alaraq əsəri 2015-ci ilin ən mühüm elmi nəticəsi hesab edib. Tədbirdə kitabın müəlliflər kollektivinin 2016-cı il üçün Azərbaycan Respublikasının dövlət mükafatına təqdim olunması qərara alınıb.

Sonra AMEA Naxçıvan Bölməsinin 2015-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında bölmənin sədri, akademik İsmayıl Hacıyevin hesabatı dinlənilib.

Sonra AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin internet vasitəsilə bağlandığı telekörpünü yüksək qiymətləndiriblər. Naxçıvan Dövlət Universiteti və AMEA Naxçıvan Bölməsi haqqında müsbət fikirlərini bölüşən alimlər bu elm-təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiq olunduğunu, yüksək tələblərə cavab verən elektron idarəetmə sisteminin yaradıldığını qeyd ediblər. Bildirilib ki, bu cür elektron resurslardan istifadə Azərbaycan elminin ən son texnoloji yeniliklərə verdiyi önəmin göstəricisidir.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada təhsil sistemində informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının ali məktəblər ailəsində özünəməxsus yer tutan Naxçıvan Dövlət Universiteti bu yaxınlarda daha bir ilkə imza atıb. Belə ki, Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində doktorant və dissertantlar informatika fənnindən elektron-test üsulu ilə minimum imtahanı veriblər.

Sonra AMEA-nın Gəncə Bölməsi, Lənkəran və Şəki regional elmi mərkəzlərinin 2015-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətlərinə dair hesabatları dinlənilib.

Onlayn müzakirə şəklində keçən hesabatlarda Naxçıvan Dövlət Universitetinin və AMEA Naxçıvan Bölməsinin əməkdaşları canlı bağlantı vasitəsilə sual-cavabda iştirak ediblər.

**Mina QASIMOVA**

*Naxçıvan Müəllimlər İnstitutunda 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə “Ana dili milli varlığımızın əsas göstəricisidir” mövzusunda elmi-praktik konfrans keçirilib.*

## Beynəlxalq Ana Dili Günü qeyd olunub



Tədbiri institutun tədris işləri üzrə prorektoru, professor Akif İmanlı açaraq bu günün qeyd edilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan dilinin inkişafı sahəsində atılan ən mühüm addım ümummilli liderimiz Heydər Əliyevin qətiyyəti sayəsində 1978-ci ildə ölkənin Əsas Qanununda Azərbaycan dilinin dövlət dili kimi təsbiti idi. Xalqımızın əsas milli dəyərlərindən biri olan ana dilinin sonrakı dövrlərdə də qorunması və inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlər görülüb, qanunvericilik bazası möhkəmləndirilib.

Tədbirdə ali məktəbin tərbiyə işləri üzrə prorektoru, professor Sədaqət Həsənova “Dilimiz mənəvi kimliyimizdir” mövzusunda çıxış edib. Qeyd olunub ki, Azərbaycan dili türk dilləri ailəsində ən möhtəşəmidir. Dilimiz dünyanın ən musiqili dili adlandırılır. Bu isə təsadüfi deyil. Çünki bu dildə sait səslərin çoxluğu onun ahəngdarlığını daha da artırır. Azərbaycan dili həm də lüğət tərkibinə və sintaktik quruluşuna görə zəngin bir dildir. Ümumiyyətlə, Azərbaycan dili statuslu, minillik yaddaş tariximizin bütün incəliklərini ifadə etmək iqtidarında olan, həyatın bütün sahələrinin modullarını özündə əks etdirən, bütün təqiblərə, təzyiqlərə müqavimətli, dünya dilləri sırasında bərabərhüquqlu mövqeyə malik zəngin yazılı və şifahi ədəbiyyatı olan dildir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət dil siyasətindən də danışılıb. Bildirilib ki, Naxçıvan şəhərində “Ana dili” abidəsinin ucaldılması, Azərbaycanda latın qrafikasına keçiddən sonra muxtar respublikanın kitabxanalarına 2 milyondan artıq kitab verilməsi ana dilimizə olan dərin ehtiramın ifadəsidir. Son illər muxtar respublikada dərc olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, 3 clddə “Naxçıvan tarixi” və xeyli sayda digər nəşrlər tariximiz, mədəniyyətimizlə yanaşı, dilimizin də inkişafına mühüm töhfədir.

Çıxışlarda o da vurğulanıb ki, bu gün hamımızdan Azərbaycan dilinə münasibətdə, dilimizin saflığının qorunmasında vətəndaşlıq mövqeyi tələb olunur. Dilimizi qorumaq isə bir nəfərin, yaxud bir kollektivin işi yox, ümumxalq işi olmalıdır.

**Xəbərlər şöbəsi**

## Maarifləndirici tədbir keçirilib



***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Oğlanqala Kənd Mərkəzində “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilib.***

Tədbiri Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova açaraq belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu” mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması, eləcə də qadınların ailədə üzərinə düşən vəzifələrin düzgün yerinə yetirilməsi məqsədilə maarifləndirmə işinin daha geniş surətdə aparılması, qadınların sağlamlıqlarının mühafizəsi sahəsində tibbi xidmətin keyfiyyət və səmərəliliyinin yüksəldilməsi diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, ana və uşaq ölümü hallarının qarşısının alınmasında müsbət göstəriciyə nail olunub.

Bildirilib ki, ötən il Azərbaycan Respublikasının Ailə Məcəlləsində müvafiq dəyişikliklərin edilməsindən sonra ailə qurmaq istəyən şəxslərin məcburi tibbi müayinəsinin həyata keçirilməsi sağlam ailənin formalaşmasında, uşaqların irsi xəstəliklər və anadangəlmə inkişaf qüsuru ilə doğulmasının qarşısının alınmasında xüsusi əhəmiyyət daşıyır. Yenilik ondan ibarətdir ki, nikaha daxil olmaq istəyən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən konkret xəstəliklər üzrə tibbi müayinədən keçməlidirlər. Bu zaman onlara həmçinin tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlərin verilməsi də nəzərdə tutulur. Yəni nikaha daxil olmaq istəyən şəxsdə xəstəliklərdən hər hansı biri aşkar edilərsə, bu xəstəliyin ailə qurduqda yarada biləcəyi fəsadlar ona izah edilir. Bunu etməkdə məqsəd nikaha mane olmaq yox, gələcəkdə ailədə dünyaya gələcək uşaqların, habelə ailənin digər üzvlərinin riskli hallardan qorunmasını təmin etməkdir.

Vurğulanıb ki, ailə dəyərlərini qoruyub saxlayan, nəsildən-nəslə ötürən qadındır. O, övladının maddi ehtiyaclarını təmin etməklə yanaşı, onu aydın düşüncəyə, saf əqidəyə və ədəb-ərkana yiyələndirməli, bu yolla onun gələcəyini qurmalıdır. Bu, cəmiyyətin gələcəyini qurmaq deməkdir. Ailə dəyərlərimizi, adət-ənənələrimizi qoruyub saxlamaq və onların icrasına nəzarət etmək, uşaqların televiziya və internet kimi kütləvi informasiya vasitələrindən istifadəsini çərçivəyə salmaq kimi vəzifələr də ananın öhdəsindədir. Əgər ana uşağın təhsilinə ciddi yanaşmasa, sözsüz ki, cəmiyyətə savadsız bir insan təhvil verəcəkdir. Bir sözlə, ana uşağın gələcək taleyi üçün böyük məsuliyyət daşıyır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda növbəti kurs

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəssisələrdə kadrlar üzrə mütəxəssislərin biliklərinin artırılması məqsədilə maarifləndirici kursların təşkili davam etdirilir. Fevralın 15-də Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda növbəti kursa başlanılıb. Kurs beş iş günü davam edəcək.***



Kursa “Cahan-İnşaat”, “Əlincə Qala”, “Nur-Qida”, “Naxçıvan Sement”, “Gəmiqaya Bərəkət Qida”, “Naxçıvan Məişət Xidməti”, “Araz Holdinq LTD” Məhdud Məsuliyyətli cəmiyyətlərinin, “Naxçıvan Xalça” Açıq Səhmdar Cəmiyyətinin, “Təməl” Sənaye və Ticarət Şirkətinin və “Gəmiqaya Şirkəti” Məhdud Məsuliyyətli Cəmiyyətinin tikinti materiallarının satışı mərkəzinin, ümumilikdə, 10 mütəxəssisi cəlb edilib.

Kursda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən “Əmək müqaviləsinin bağlanmasının əsasları və qaydaları”, “Əmək müqaviləsinin nümunəvi forması, onun düzgün doldurulması və ona dəyişikliklərin edilməsi qaydaları”, “Əmək müqaviləsi üzrə işəgötürən və işçinin hüquq və vəzifələri”, “Əmək münasibətləri zamanı digər sənədləşmə işlərinin qanuna müvafiq həyata keçirilməsi” və digər mövzular tədris olunur.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

Qeyd edək ki, bu tədbir 11 yanvar 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Ordubad rayonunda şeir müsabiqəsi

***Ordubad şəhər 3 nömrəli tam orta məktəbdə Beynəlxalq Ana Dili Gününün qeyd edilməsi məqsədilə rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə şeir müsabiqəsi keçirilib.***

Müsabiqədə 19 məktəbdən 20 şagird iştirak edib. Tədbirdə Təhsil Şöbəsinin metodisti Əyyar Səfərov çıxış edərək Beynəlxalq Ana Dili Günü haqqında müsabiqə iştirakçılarını məlumatlandırıb.

Sonra şeirlər dinlənilib, şeirlərin ifa tərzinə, mimikalara, jestlərə görə qaliblər müəyyənləşdirilib. Münsiflər heyətinin qərarına əsasən, Ordubad şəhər 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi Aysun Məmmədova, Vənənd kənd tam orta məktəbinin X sinif şagirdi Xanım Zeynalova, Kotam kənd tam orta məktəbinin IX sinif şagirdi Nuray Hətəmli müvafiq olaraq ilk 3 pillədə qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

## Babək rayonunda basketbol turniri

Babək rayonunda Xocalı faciəsinin 24-cü ildönümünə həsr olunmuş basketbol turniri keçirilib. Babək Rayon Təhsil Şöbəsi və Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə keçirilən tədbiri Uşaq-Gənclər İdman Məktəbinin direktoru Füzuli Salmanov açaraq Xocalı faciəsindən danışıb.

Sonra yarışın baş hakimi Fərəc Cəfərov oyunun qaydaları barədə komandalara məlumat verib. Xocalıda şəhid olanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə yarışa start verilib. Gərgin keçən mübarizə şəraitində turnirin birinci pilləsinə Nehrəm kənd 1 nömrəli tam orta məktəbin komandası yüksəlib. İkinci yerə Babək qəsəbə 2 nömrəli tam orta məktəbin, üçüncü yerə isə Nehrəm kənd 3 nömrəli tam orta məktəbin komandaları layiq görülüblər.

Qalib komandalar diplomlarla təltif ediliblər.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 147